F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Bəşər tarixinin dəhşətli faciəsi- Xocalı soyqırımı

XX əsrin faciəsi Xocalı soyqırımı haqqında ətraflı məlumatı kütləvi oxuculara çatdırmaq məqsədilə hazırlanmış metodik vəsait

**Bakı - 2026**

**Tərtibçi :** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Bəşər tarixinin dəhşətli faciəsi - Xocalı soyqırımı** - XX əsrin faciəsi 26 fevral Xocalı soyqırımı haqqında ətraflı məlumatı oxuculara çatdırmaq məqsədilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait/ tərt. ed.Aynurə Əliyeva; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2026.-38 s

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Vətəndaş və Vətən: mənsubiyyətin fəlsəfəsi

Vətən xəritədə çəkilmiş sərhəd deyil, insanın qəlbində çəkilmiş dairədir. O dairənin içində uşaqlığın səsi, ana dilinin ahəngi, torpağın qoxusu, göy üzünün rəngi yaşayır. Vətəndaş isə həmin dairənin şüurlu daşıyıcısıdır – o, sadəcə bir ölkənin sakini deyil, onun tarixinin, mədəniyyətinin və gələcəyinin məsuliyyətini bölüşən mənəvi varlıqdır.

Vətəndaşlıq hüquqi anlayışdır, amma vətən sevgisi mənəvi seçimdir. Pasport insanı dövlətə bağlayır, sevgi isə torpağa, yaddaşa, birliyə bağlayır. Vətənə sevgi şüarlarla deyil, gündəlik davranışla ölçülür: qanuna hörmətlə, zəhmətə sədaqətlə, ədalətə inamla, başqasının haqqını qorumaqla.

Vətən sevgisi romantik duyğudan daha artıqdır. O, çətin gündə məsuliyyət, rahat gündə isə vicdan deməkdir. Çünki vətəni sevmək təkcə onu müdafiə etmək deyil, onu inkişaf etdirməkdir; təkcə keçmişi anmaq deyil, gələcəyi qurmaqdır. Hər bir vətəndaş öz işi, biliyi, davranışı ilə vətənin görünməyən memarına çevrilir.

Vətən insanı formalaşdırdığı kimi, insan da vətəni formalaşdırır. Cəmiyyətin səviyyəsi vətəndaşın düşüncəsində, vətəndaşın ləyaqəti isə vətənin simasında əks olunur. Əgər vətəndaş dürüstdürsə, vətən möhkəmdir; əgər vətəndaş məsuliyyətlidirsə, vətən güclüdür.

Vətənə sevgi hayqırtı deyil, səssiz sədaqətdir. O, bayraq qarşısında baş əymək qədər müqəddəs, gündəlik əməyə vicdan qatmaq qədər realdır. Vətəni sevmək – onu yalnız torpaq kimi deyil, dəyər kimi qəbul etməkdir.

Nəticədə vətəndaş və vətən bir-birindən ayrı deyil. Onların münasibəti qarşılıqlı məsuliyyət üzərində qurulur. Vətən vətəndaşına kimlik verir, vətəndaş isə vətəninə məna. Və bu məna yaşadıqca, vətən də yaşayır.

**Azərbaycan, sənsən mənim, Ülviyyətim, şan-şöhrətim. Adın mənim öz adımdır, Sənsiz mənim nə qiymətim.**

*Xalq şairi Bəxtiyar Vahabzadə*

Doğulub boya-başa çatdığın, suyunu içib, nemətini daddığın, acısı ilə kədərlənib, sevinci ilə qanadlanıb uçduğun, yaxşısı ilə öyünüb, kədərini özünə dərd etdiyin yurd -Vətəndir. Bu vətənin böyük, şərəfli bir adı var- Azərbaycan! Azərbaycan mənim vətənimdir.

Doğma vətənimə sevgim hər şeyə - havasından, suyundan, təbiətindən, torpağından, daşından tutmuş insanlarına olan dərin və tükənməz sevgimdir. Bu vətənin şanlı tarixi keçmişi, indisi və işıqlı gələcəyi mənə əzizdir. Çünki vətənim Azərbaycan asanlıqla bugünkü vəziyyətə gəlib çıxmamışdır. Onun zaman- zaman yadelli işğalçılar tərəfindən bağrı dəlik-deşik olmuş, güclü istila və talanlara məruz qalmışdır. Bir yandan azğın işğalçılar tərəfindən soyulub talan edilmiş, digər tərəfdən isə param-parça edilərək bir tərəfi Şimal, o biri tərəfi Cənub olaraq ikiyə bölünmüşdür. Odur ki, əsrlər boyu Azərbaycan adlanan yurdum yaralanmış, sızlamış öz övladlarından yardım və kömək istəmişdir. Mərd və mübariz Azərbaycan oğulları bu çağırışa qeyrətlə səs vermiş, yolunda saysız-hesabsız şəhid və qurbanlar vermişlər.

Vətənim Azərbaycanı bu qədər işğallara məruz qoyan onun gözəlliyi, ecazkar təbii sərvətləri olmuşdur. Onun zəngin və əlverişli iqlim şəraiti, bu ölkənin böyük sərvətlərə malik olmasına səbəb olmuşdur. Yaradanın gözəl nemətlərindən biri olan parlaq günəş il boyu şəfəqlərini bu diyardan əsirgəməmişdir. Buna görə vətənim "Odlar yurdu" da adlandırılır. Bu baxımdandır ki, bizim xalqımız istiqanlı və qonaqpərvərdir.

Vətənimi çılğın mavi gözlü Xəzəri, Ulu qoşqarı, ağbaşlı Kəpəzi, incə zümrüd Araz vadisi ilə, bitib-tükənmə yən düzənlikləri, həmişə yaşıl meşələri, bol balıqlı çayları, mirvari gözlü Göygölü, Maralgölü, Xoş bulağı ilə birlikdə sevirəm.
Qubanın payız bağları, Lənkəranın tropik nemətləri, coşub- daşan narahat Kürü, şəffaf Arazı ilə sevirəm. Vətənim Azərbaycanı.

Azərbaycan xalqının tarixi onun azadlıq və xoşbəxtlik uğrunda mübarizə tarixidir. Bu xalqın mübarizə və qəhrəmanlığı tarix boyu təsvir və tərənnüm edilmişdir. Tarix boyu vətənim, ana yurdum Azərbaycan yağı düşmənin amansız təqibinə məruz qalıb, lakin məğrur, mübariz oğullarının şücaəti nəticəsində Azərbaycan hər zaman qələbə çalmış, qalib ölkə olmuşdur. Bu gün illər öncə vətənimin üzərinə çökən qara buludlar artıq çəkilmiş, Vətən asimanı aydınlanmışdır. İllərdir Azərbaycanımızın qəlbi olan Qarabağ dərd içində könlü həsrət, iztirablar içində öz vətən övladlarından imdad diləyirdi. Lakin bu dərdi çözən mətin sərkərdəmiz, qəhrəman və qeyrətli oğullarımız vardır. Başda Ali Baş Komandanımız

cənb İlham Əliyev olmaqla cəsur Azərbaycan övladları və bütünlükdə millətimiz bu Qarabağ yarasını öz əlləri ilə kəsib atdı, bağrı dəlinən vətənim Azərbaycanın yarasına şəfalı məlhəmi ilə əlac qıldı! 44-günlük haqlı savaşımız- ikinci Qarabağ müharibəsində biz qələbə çaldıq. Tanrı bizə yar oldu, düşməni torpaqlarımızdan qovduq. Biz fəxr edirik ki, bu amansız, bəşəriyyətdə misli görünməmiş Xocalı qətliamının qisasını aldıq. Qarabağ azaddır, Qarabağ Azərbaycandır.

Xocalı soyqırımının 34 illik ildönümü ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, səhnəciklər, dəyirmi masa, icmal, kompozisiya, oxucularla söhbət, ədbi-bədii gecə və s. keçirilə bilər. Həmin günü unutmamaq və gənc nəslə, eləcə də şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır.

Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: "Talesiz şəhərin talesiz sakinləri", "Qan qoxuyan rəqəmlər", "Əsrin faciəsi", "Xocalıya ədalət", "İtkin düşmüş arzular", "Qan içində boğulanlar şəhəri", "Ömrü ilk ad gününə çatmayan körpələr", "Səsimizə səs ver dünya", "Danış, Kətik meşəsi", "Xocalım, ay Xocalım", "Xocalı soyqrımı: tariximizin dönüş nöqtəsi", "Qan yaddaşımıza hopmuş Xocalı", "Bəşər tarixinin dəhşətli faciəsi", "Günəşin göz yaşları", "Sinəsi dağlı, yolları bağlı şəhər", "İnsanlığa qarşı yönəlmiş dəhşətli cinayət - Xocalı", "Qarabağ harayı...", "Tariximizin qanla yazılmış bir parçası" , "Ruhlar şəhəri" və s.



**Görkəmli şəxsiyyətlərin Xocalı faciəsi haqqında söylədiyi fikirlər:**

1992- ci il fevraln 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi hadisəsi, öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə insanlığın tarixində qara ləkə kimi qalacaq.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü ardıcıl fəaliyyət göstərir. Biz həm də erməni millətçilərindən fərqli olaraq, bu məsələlərdən hər hansı siyasi, maliyyə, ərazi və başqa dividendlər qazanmaq məqsədi güdmürük. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Bu, qəhrəman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Heydər Əliev Fondu və "Xocalıya Ədalət" kampaniyası Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoymuşdur. Bu gün etdiklərimizn heç biri Xocalı soyqırımının yaralarını sağalda bilməz. Bizim edə biləcəyimiz yalnız həmin dəhşətli tarixi yad etmək və və qətliam zamanı öldürülən və ya ömürlük əlil olan uşaq, qadın və kişiləri unutmamaqdadır.

**Leyla Əliyeva,**
*Heydər Əliyev Fondunun vitse-prezidenti*

Xocalı Yer kürəsinin xəritəsində kiçicik bir nöqtədir, amma bu balaca məkanda 1992-ci ilin 26 fevralında baş vermiş soyqırımı hadisəsi oranı bizim müasiri olduğumuz illər və bütün gələcək tarix üçün insanlığın diqqət mərkəzində əbədi ələm və ibrət nümunəsi kimi qalmağa məhkum etdi.

**Rafael Hüseynov,**
*Millət vəkili, AMEA-nın müxbir üzvü*

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev fondunun xüsusi xidmətləri vardır.

**Əliqismət Bədəlov,**
*jurnalist*

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı dünya tarixində yaddaşlardan heç vaxt silinməyən Xatın, Ruanda, Srebrenitsa və Holokost kimi dəhşətli faciələrdən heç də geri qalmır.

**Əli Həsənov,**
tarixçi, yazar

Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz . Bu qətliamı törədənlər isə bununla sanki öyünürmüşlər kimi danışırdılar.

**R.Patrik,**
*İngiltərənin "Fant men nyus" teleşirkətinin müxbiri*

Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılardan çoxlu sayda ölən var.

**"Krual Eveneman" jurnalı, Paris 1292-ci il 26 fevral 1992-ci il**

Xocalı soyqırımını məktəblilərə və eləcə də gələcək nəslə tanıtmaq məqsədilə kitabxanaçı məktəblərdə soyqırımdan bəhs edən **"Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda"** başlıqlı **söhbət** də keçirə bilər. Bunun üçün kitabxanaçı məktəblərə gedib akt zalında şagirdlərlərlə görüş keçirib, mövzu haqda məlumat verə bilər. Kitabxanaçı şagirdlərlə yanaşı, tarix və ədəbiyyat müəllimlərini də tədbirə dəvət edir.

Ya rəbb, bu nə dəhşət, nə fəlakət, Ya rəbb, bu nə vəhşət, nə zəlalət? Yox kimsədə insafü-mürüvət, İblisəmi uymuş bəşəriyyət?

**Hüseyn Cavid**

Xocalı: İşğaldan azadlığa uzanan tarixi yol

Azərbaycanın müasir tarixində həm faciə, həm də qürur səhifəsi kimi yadda qalan Xocalı şəhərinin taleyi Qarabağ münaqişəsinin mahiyyətini və onun nəticələrini özündə əks etdirir. 1992-ci ildə ağır hücuma məruz qalan və uzun illər işğal altında qalan Xocalı 2023-cü ildə Azərbaycanın suverenliyinin tam bərpası ilə yenidən dövlət nəzarətinə qayıtdı. Bu proses təkcə hərbi və siyasi hadisə deyil, həm də tarixi ədalətin bərpası kimi qiymətləndirilir.

Xocalı Qarabağ bölgəsində, Xankəndi şəhəri yaxınlığında yerləşir və strateji mövqeyinə görə xüsusi əhəmiyyət daşıyır. Şəhər 1990-cı ildə rayon statusu almış, burada Qarabağın yeganə hava limanı fəaliyyət göstərmişdir. Əhali əsasən kənd

təsərrüfatı və müxtəlif xidmət sahələrində çalışırdı. 1991-ci ilə qədər şəhərdə təxminən 7 minə yaxın sakin yaşayırdı.

1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində bölgədə separatizm meylləri gücləndi. SSRİ-nin dağılması fonunda mərkəzi nəzarətin zəifləməsi silahlı qarşıdurmaların artmasına səbəb oldu. 1991-ci ilin sonlarından etibarən Xocalı faktiki mühasirəyə alındı. Şəhərə gedən yollar bağlandı, elektrik və rabitə xətləri kəsildi, ərzaq və tibbi təminat ciddi şəkildə çətinləşdi. Şəhər mütəmadi olaraq atəşə tutulurdu.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya genişmiqyaslı hücum həyata keçirildi. Şəhəri tərk etməyə çalışan mülki əhali atəşə məruz qaldı. Rəsmi məlumatlara əsasən 613 nəfər həyatını itirdi, onlardan 63-ü uşaq, 106-sı qadın idi. 487 nəfər yaralandı, 1275 nəfər girov götürüldü, 150 nəfərin taleyi isə uzun müddət naməlum qaldı. 8 ailə tamamilə məhv edildi. Bu hadisə Azərbaycan tarixində Xocalı faciəsi kimi yadda qaldı və dövlət tərəfindən soyqırımı aktı kimi qiymətləndirildi.

1992-ci ildən sonra şəhər işğal altında qaldı. İnfrastruktur dağıdıldı, yaşayış binaları və sosial obyektlər məhv edildi. Xocalı sakinləri ölkənin müxtəlif bölgələrində məcburi köçkün həyatı yaşamağa məcbur oldular. Bu dövr ərzində Azərbaycan dövləti beynəlxalq müstəvidə Xocalı həqiqətlərinin tanıdılması istiqamətində ardıcıl fəaliyyət göstərdi, bir sıra ölkələrin parlamentləri hadisəni pisləyən sənədlər qəbul etdilər. 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi Qarabağ münaqişəsində yeni mərhələnin əsasını qoydu. Azərbaycan Ordusu bir sıra rayon və şəhərləri işğaldan azad etdi. 8 noyabr 2020-ci ildə Şuşa şəhərinin azad olunması strateji dönüş nöqtəsi oldu. 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla hərbi əməliyyatlar dayandırıldı. Lakin Xocalı müvəqqəti olaraq Rusiya sülhməramlı kontingentinin yerləşdiyi əraziyə daxil idi.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın Qarabağ bölgəsində suverenliyi tam təmin edildi. Separatçı silahlı birləşmələr tərksilah olundu və konstitusion quruluş bərpa edildi. Bununla da Xocalı şəhəri 31 ildən sonra yenidən Azərbaycan dövlətinin tam nəzarətinə keçdi.

Azadlıqdan sonra şəhərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanıldı. Mina və partlamamış sursatlardan təmizləmə, infrastrukturun yenidən qurulması, yaşayış məntəqələrinin planlaşdırılması istiqamətində dövlət proqramları icra olunmaqdadır. "Böyük Qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma torpaqlarına qayıdışı nəzərdə tutulur.

Xocalının taleyi Azərbaycan xalqının yaddaşında həm faciənin, həm də zəfərin simvoludur. 1992-ci ilin ağrısı tarixə həkk olunsa da, 2023-cü ildə azadlığın bərpası göstərdi ki, suverenlik və ərazi bütövlüyü uğrunda aparılan mübarizə nəticəsiz qalmır. Bu gün Xocalı yenidən qurulan, dirçələn və gələcəyə doğru addımlayan bir şəhər kimi tarixinin yeni mərhələsini yaşayır.

Xocalının 2026–2030-cu illər üzrə inkişaf perspektivləri: Strateji hədəflər və gələcəyə baxış

Azad olunmuş Xocalı şəhəri yeni tarixi mərhələyə qədəm qoymuşdur. 2023-cü ildə Azərbaycanın suverenliyinin tam bərpasından sonra şəhərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanılmış, infrastruktur layihələri icra edilmiş və ilk məskunlaşma mərhələsinin əsası qoyulmuşdur. Qarşıdakı 2026–2030-cu illər dövrü isə Xocalının tam formalaşmış, müasir və dayanıqlı şəhər modelinə çevrilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu mərhələdə məqsəd yalnız fiziki bərpa deyil, həm də iqtisadi, sosial və institusional inkişafın kompleks şəkildə təmin olunmasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilən inkişaf konsepsiyasına uyğun olaraq Qarabağ bölgəsi, o cümlədən Xocalı müasir şəhərsalma prinsipləri əsasında yenidən qurulur. 2026–2030-cu illərdə şəhərin baş planının tam icrası nəzərdə tutulur. Yaşayış massivləri, inzibati binalar, sosial obyektlər və ictimai məkanlar vahid urbanistik konsepsiya əsasında formalaşdırılacaq. Ağıllı şəhər texnologiyalarının tətbiqi, rəqəmsal idarəetmə sistemlərinin qurulması və alternativ enerji mənbələrinin inteqrasiyası Xocalının inkişaf modelinin əsas komponentləri olacaqdır.

Bu dövrdə əhali məskunlaşmasının genişləndirilməsi prioritet istiqamətlərdən biridir. Dövlət proqramları çərçivəsində minlərlə keçmiş məcburi köçkün ailəsinin mərhələli şəkildə doğma torpaqlarına qayıdışı planlaşdırılır. Yeni çoxmərtəbəli yaşayış kompleksləri və fərdi evlər tikiləcək, şəhərin demoqrafik balansı bərpa olunacaqdır. Eyni zamanda müasir məktəblərin, uşaq bağçalarının, peşə təhsili mərkəzlərinin və səhiyyə müəssisələrinin yaradılması sosial sabitliyin möhkəmlənməsinə xidmət edəcək.

İqtisadi inkişaf strategiyası 2026–2030-cu illərdə Xocalının regional iqtisadi mərkəzə çevrilməsini hədəfləyir. Kiçik və orta sahibkarlığın təşviqi, sənaye və aqrar emal müəssisələrinin qurulması, kənd təsərrüfatının modernləşdirilməsi əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir. Aqrar sektorun inkişafı üçün müasir suvarma sistemləri tətbiq olunacaq, heyvandarlıq və bağçılıq təsərrüfatları genişləndiriləcəkdir. Ekoloji təmiz məhsul istehsalı və ixrac imkanlarının artırılması bölgənin iqtisadi potensialını gücləndirəcək.

Turizm sektorunun inkişafı da Xocalının gələcək strategiyasında mühüm yer tutur. Xocalı Soyqırımı Memorial Kompleksi və digər tarixi məkanlar beynəlxalq səviyyədə tanıdılacaq, şəhər mədəni və tarixi turizm marşrutlarına daxil ediləcəkdir. Ekoturizm və kənd turizmi layihələri həm iqtisadi gəlir, həm də regionun beynəlxalq imicinin möhkəmlənməsi baxımından əhəmiyyətli olacaqdır.

Rəqəmsal transformasiya istiqamətində də mühüm addımlar planlaşdırılır. Elektron dövlət xidmətləri, rəqəmsal təhsil platformaları, ağıllı enerji və su idarəetmə sistemləri tətbiq ediləcəkdir. Bu, şəhərin idarə olunmasında şəffaflığı və səmərəliliyi artıracaq, eyni zamanda gənclər üçün innovasiya və startap mühiti yaradacaqdır.

Ekoloji tarazlığın qorunması 2026–2030-cu illər strategiyasının əsas sütunlarından biridir. Yaşıllıq zolaqlarının salınması, park və istirahət məkanlarının yaradılması, tullantıların çeşidlənməsi və təkrar emalı sisteminin tətbiqi, günəş və külək enerjisindən istifadənin genişləndirilməsi planlaşdırılır. Məqsəd Xocalını dayanıqlı və ekoloji cəhətdən balanslı şəhər modelinə çevirməkdir.

Xocalının inkişafı bütövlükdə Qarabağ bölgəsinin dirçəlişi ilə paralel şəkildə həyata keçiriləcək. Regional inteqrasiya və yeni iqtisadi zonaların formalaşdırılması Xocalını logistika, ticarət və sənaye baxımından mühüm mövqeyə çıxara bilər. Bu yanaşma şəhərin uzunmüddətli inkişafını təmin edən strateji əsasdır.

Nəticə etibarilə, 2026–2030-cu illər Xocalının tam bərpa mərhələsindən inkişaf mərhələsinə keçid dövrü olacaqdır. Dövlət siyasəti, investisiya mühiti və sosial reinteqrasiya mexanizmləri şəhərin sabit, firavan və müasir yaşayış məkanına çevrilməsini təmin etməyə yönəlib. Xocalı artıq yalnız keçmişin ağrılı xatirəsi deyil, həm də gələcəyin qurulan şəhəri kimi yeni tarixini yazmağa hazırlaşır.

Xocalının azad olunmasında İlham Əliyevin rolu və siyasəti

Xocalının azad olunması Azərbaycanın ərazi bütövlüyünün bərpası prosesində mühüm mərhələlərdən biri kimi dəyərləndirilir. Bu proses təkcə hərbi nəticə deyil, uzunmüddətli siyasi strategiyanın, diplomatik fəaliyyətin və ardıcıl dövlət idarəçiliyinin nəticəsi kimi qiymətləndirilir.

Strateji siyasi xətt və prinsipial mövqe

İlham Əliyevin rəhbərliyi dövründə Qarabağ məsələsi dövlət siyasətinin əsas prioriteti kimi müəyyənləşdirildi. Beynəlxalq platformalarda Azərbaycanın ərazi bütövlüyü prinsipial şəkildə müdafiə olundu, münaqişənin həlli istiqamətində hüquqi baza və siyasi arqumentlər gücləndirildi. Dövlət başçısı çıxışlarında daim beynəlxalq hüququn norma və prinsiplərinə istinad edərək Azərbaycanın mövqeyini ardıcıl şəkildə təqdim etdi.

Bu siyasət bir tərəfdən diplomatik müstəvidə Azərbaycanın haqlı mövqeyini möhkəmləndirir, digər tərəfdən isə daxili siyasi həmrəyliyi gücləndirirdi.

Güclü dövlət – güclü ordu konsepsiyası

Xocalının azad olunmasına aparan yol hərbi potensialın sistemli şəkildə gücləndirilməsi ilə sıx bağlı idi. Ordu quruculuğuna ayrılan diqqət, müasir texnologiyaların tətbiqi və peşəkar kadr hazırlığı dövlət siyasətinin əsas istiqamətlərindən biri oldu.

"Güclü iqtisadiyyat güclü ordunun təminatıdır" prinsipi əsasında aparılan islahatlar nəticəsində Azərbaycan Silahlı Qüvvələri regionun ən modern və hazırlıqlı

ordularından birinə çevrildi. Bu isə hərbi əməliyyatlar zamanı strateji üstünlük yaratdı. İlham Əliyevin çoxşaxəli xarici siyasət kursu Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirdi. Regional və qlobal güclərlə balanslaşdırılmış münasibətlər qurulması ölkənin siyasi manevr imkanlarını artırdı. Bu siyasət nəticəsində Azərbaycan həm siyasi, həm də iqtisadi müstəvidə daha dayanıqlı mövqe qazandı. Xocalının azad olunmasından sonra dövlət siyasətinin əsas istiqaməti bərpa və yenidənqurma oldu. İnfrastruktur layihələri, yaşayış məntəqələrinin yenidən qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi həmin ərazilərin sosial-iqtisadi dirçəlişinə yönəldildi.
Bu mərhələ göstərdi ki, azadlıq yalnız hərbi nəticə deyil, həm də davamlı inkişaf strategiyasıdır. Xocalının azad olunması İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uzunmüddətli siyasi strategiyanın, diplomatik səylərin və hərbi gücün vəhdəti kimi qiymətləndirilə bilər. Bu proses dövlətçilik prinsipinin – suverenlik, ərazi bütövlüyü və milli həmrəyliyin – praktiki təcəssümü oldu.
Beləliklə, Xocalının taleyi təkcə hərbi əməliyyatın nəticəsi deyil, illərlə formalaşdırılmış siyasi iradənin və ardıcıl dövlət siyasətinin məntiqi yekunu kimi tarixə yazıldı.

Erməni-daşnak faşistləri ilkin olaraq açıq şəkildə 1905-1907- ci illərdə Azərbaycan türklərininin qətliamına fərman verdilər və milli-etnik münaqişə zəmnində XX əsrin ilk soyqırımı faciəsini törətdilər. Dişləri qana batdıqca şirnikdilər, ayrı-ayrı dövrlərədə tarixi şəraitə uyğun və məqsədyönlü şəkildə müxtəlif metod və üsullarla təzyiq, təhdid və təqiblərini səngitmək bilmədilər. Azərbaycanlıların qətliamını II mərhələdə -1918- 1920-ci illərdə daha amansız şəkildə davam etdirərək, əcdadlarımızın Oğuz yurdunu-Qərbi Azərbaycanı qəsb etdilər. Ana şəhərimiz olan İrəvanı isə özlərinə paytaxt seçdilər. Etnik təmizləmə siyasətinin III mərhələsi 1948-1953-cü illərdə cinayətkarcasına həyata keçirildi. 1988-1991-ci illərdə isə son olaraq daşnak terror qruplarının təzyiqləri, təxribat və sui- qəsdləri ilə Azərbaycan türklərini etnik torpaqlarından-Qərbi Azərbaycandan son nəfərinədək çıxardılar, yurd-yuvalarından didərgin saldılar. Türksüz Ermənistan Respublikası yaratmağa müvəffəq oldular. Bütün bunlarla kifayətlənməyən erməni - daşnak faşistləri Azərbaycan torpaqlarını qəsb etmək, etnik təmizləmə və qətliam siyasətlərini davam etdirməkdən əl çəkmir, Vətənimizin döyünən ürəyi olan Qarabağ torpaqlarını işğal altında saxlayırdılar. Bir milyondan artıq soydaşımız çadır düşərgələrində, fin qəsəbələrində, yük vaqonlarında mal-qara qışlaqlarında, yol kənarlarındakı torpaq qazmalarında, tikintisi yarımçıq qalmış ictimai binalarda, yataqxanalarda, uşaq baxçalarında və məktəblərdə ağır şəraitdə həyat tərzi keçirirdilər.

Kitabxanada Xocalı faciəsini oxuculara tanıtmaq **məqsədilə "Böyüməyən uşaqlar" adlı səhnəcik** də təşkil etmək olar. Məsələn, bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə bu mövzuda yazılmış bir neçə əsərlərlə tanış edir. Kitabxanaya abunə olan şagirdlər faciəni əks etdirən müxtəlif adda əsərləri oxuyur, xüsusi amansızlıqla baş vermiş qətliamla yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə məlum soyqırımla bağlı bir sıra hekayələri səhnələşdirə bilər. Məsələn: Səriyyə Müslüm qızının sevilən əsərlərindən biri olan "Xocalı uşaqları qan üçində qar çiçəyi" povestinin bir hissəsi əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik.

Öncə səhnə əsərə uyğun olaraq dekorasiyalarla hazırlanır. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. Aparıcı səhnəyə yaxınlaşaraq povestdən bir hissə deməyə başlayır:

**I iştirakçı:** Səhər küləyi İlisu çayına dirsəklənmiş nəhəng qayanın üstdə bitmiş qoca göyrüş ağacının budaqlarını yelləyirdi. Uzaqdan baxan olsaydı bu qoca göyrüşü uçmağa hazır olan qartala bənzədərdi. Yayın ortası olmağına baxmayaraq bu yerlərdə elə bil yaz təzəcə ayaq açırdı. Məxmər kimi otların arasındakı düyməyə bənzər çiçəklər. Bu çiçəklər çay həndəvərində bitdiyi üçün elə bil büsbütün şirə içindəydilər. Vızıldayan arılar bütün günü belədən-belə uçuşur, onları uyumağa qoymurdular. Hər gün çay aşağı, çay yuxarı qaçan uşaqlar ayaqqabılarını çıxarır, çirmənir, dibində daşları görünən

İlisu çayını adlayıb o taya keçir, Çınqıltəpəyə çıxırdılar. Onlardan ən dəcəli, qapqara moruq gözləri olan Ətrabə uzaqdan ovuc içi kimi görünən kəndlərini göstərib qışqırardı :

**I iştirakçı:** Uşaqlar, uşaqlar, ora baxın, ora baxın. Yunis dayı gilin evidir, necə də qəşəng görünür. Yanındakı da quzu kimi ona sığınan Əkbər əmi gilin evidir. Hələ arxın üstündəki budağından yelləndiyim söyüt ağacı gör necə də balaca görünür. Vay, vay, yav lap cırtdana oxşayır.

İldırım onun sözünü kəsdi :

**II iştirakçı:** -Uzaqdan hər şey elə görünür. Sən heç bizim evi demirsən, ağacların, yaşıllığın içində itib-batıb. Mən elə bilirdim dünyada bizim evdən böyük ev yoxdur.

**I iştirakçı**: Bayaqdan uşaqlara qulaq asan yastı çaylaq daşının üstündə oturmuş İsaqın elə bil dili açıldı:

**IV iştirakçı:** Yox bir dünyada? Sizin eviniz heç buradan görünmür, o da ola dünyada. Mən kinoda görmüşəm, Amerikada elə evlər var ki, adam dönüb baxanda papağı başından düşür. Ona göydələn deyirlər. Mən böyüyəndə kəndimizdə bax elə evlər tikəcəm, inanmırsan?

**III iştirakçı:** - İnanıram. Sən bu qara qayanı da yerindən qopara bilərsən.

**IV iştirakçı:** Bəs necə, qopara bilərəm. Ancaq bu qayanın üstündə bitmiş göyrüş ağacının budağındakı yuvada civildəşən ətcəbala sarıköynəklər olmasa. Sən heç sarıköynək balası görmüsən?

**III iştirakçı:** - Niyə görməmişəm? Hələ desən qaranquş balası da görmüşəm. Eyvanımızda qaranquşun yuvası da var. Nənəm deyir ki, bülbülün, qaranquşun yuvasına dəymək olmaz, qarğış eliyər.

**IV iştirakçı:** - Qumrunun da... Bizim bağ eyzən qumruynan doludur. Səhər-səhər elə qəşəng oxuyurlar ki...

Səhnəcik tamaşaçılar tərəfindən müsbət qarşılanır. Kitabxanaya abunə olan məktəblilər çağdaş ədəbiyyatımızın tanınmış simalarından olan vətənpərvər yazıçı Şərqiyyə Müslümqızının 2013-cü ildə "Yazıçı" nəşriyyatı tərəfindən nəşr olunan "Xocalı uşaqları qan üçində qar çiçəyi" adlı kitabı ilə yaxından tanış olurlar.

Bu torpağın canısan,
Selə dönmüş qanısan,
Sən kimin qurbanısan?
Layla Xocalım, layla.

Deyirlər zaman ən qüdrətli təbibdir. Bir də deyirlər zaman ən ədalətli hakimdir. Amma hərdən fikirləşirəm ki, bu fikirlər adi deyimdən uzağa getmir. Çünki, dünyanın reallığı, həyatın sərt üzü tamam başqadır. Hər dəfə Xocalı faciəsini xatırlayanda, ümumiyyətlə zaman barəsində söylənilən kəlamların həyatiliyinə şübhə ilə yanaşır insan. Əgər zaman ən qüdrətli təbibdirsə, bəs niyə bizim faciələrimiz, o faciələrimizdə aldığımız yaralar qaysaq bağlamır? Əgər zaman ən ədalətli hakimdirsə, nə üçün belə bir cahanşümul ədalətsizlik bu qədər meydan suladı? Biz o sualları dərd kimi içimizdə yaşadırıq.
Budur Xocalı soyqırımının növbəti ildönümü gəlir. Bu faciədən sonrakı illərin səhifələrindən qopan hayqırtı və fəryad səslərini eşitmək üçün yalnız azərbaycanlı olmaq da gərək deyil. Sadəcə adi insani hisslərə malik istənilən kəs milliyyətindən asılı olmayaraq həmin səsləri eşidib ən azından düşünmək məcburiyyətində qalacaq. Bu səs Xocalı qurbanlarının harayıdır. Bu haray tariximizin qanla yazılmış bir parçasıdır. Erməni silahlı dəstələrinin Xocalıya hücümunu şəhərin coğrafi mövqeyi şərtləşdirirdi. 7000 əhalisi olan Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əskəran -Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da Xocalıdadır. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı- Gədəbəy mədəniyyətinin abidələri yerləşir.

Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekropollar tapılmışdır. Həmçinin burada memarlıq abidələri - dairəvi qəbir (1356-1357-ci illər) və mavzoley (XIV əsr) vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları və s. tapılmışdır. Tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdır. Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olmuşdur. Şəhərdə toxuculuq fabriki, 2 orta məktəb və 2 natamam orta məktəb var idi.

Son illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndindən qovulmuş azərbaycanlıların bəziləri şəhərdə məskunlaşmışdılar.

Sonralar erməni tərəfi etiraf etmişdir ki, erməni silahlı dəstələrinin ilk əsas vəzifəsi Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əskəran-Xankəndi yolunun boşaldılması, azərbaycanlıların nəzarətində olan hava limanının ələ keçirilməsi idi. "Xocalı platsdarmının məhv edilməsi" sözlərinə diqqət yetirin. İndi söylənilən bu ifadə ermənilər tərəfindən törədilmiş qanlı qırğının, kütləvi surətdə uşaqların, qadınların, qocaların məhv edilməsinin səbəbini aydın göstərir. Xocalı soyqrımı ilə əlaqədar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də **"Xocalı soyqrımı: tariximizin dönüş nöqtəsi" adlı konfransdır.** Tədbir oxuculara həmin günün mahiyyətini daha da yaxından tanıtmaq üçün nəzərdə tutulur. Tədbirə tarixçilər, tarixi şəxsiyyət və siyasətçilər, ictimai elm xadimləri, yazarlar, tarix müəllimləri dəvət olunur. Konfransda Xocalı soyqrımı haqqında qonaqlara geniş məlumat verilir. Konfransın ikinci hissəsində isə ali məktəb tələbələri məruzəçi qismində çıxış edirlər. İlk olaraq kitabxanaçı qonaqları və iştirakçıları salamladıqdan sonra öz çıxışına başlayır:

Mən hardayam, qadir allah, hardayam?
İçim zülmət, çölüm zülmət, dardayam.
Ətrafımda yalquzaqlar ulaşır, Hara qədəm qoyuramsa, ayağım
Ölənlərin qanlarına bulaşır...

VƏTƏN OĞLU, iki əsrdən artıqdır ki, erməni daşnak faşistləri varlığımıza qənim kəsilmişlər. Yaşamaq haqqımızı belə əlimizdən almlşlar. Bizi-Azərbaycan türklərini erməni- daşnak faşizminin erməni adıyla ifadə olunan, erməni barbarlığının, erməni vandalizminin, erməni vəhşətinin günahsız qurbanlarına çevirmişlər. Rus imperiyasının himayəsi və havadarlığı altında misli görünməmiş qəddarlıqla etnik təmizləmə siyasəti aparır, qətl törədir, ulu əcdadlarımızın min illər boyu uyuduqları tarixi torpaqlarımızı işğal edirlər. Azərbaycan türklərinə qarşı yeridilən soyqırım siyasətinin tarixi əsrləri əhatə edir. Bəşər sivilizasiyasında insanların kütləvi qətliamı ilə tarixə yazılan soyqırım çox olub. Xatın, Xirosima, Naqasaki, Uqanda... Amma onların içərisində Xocalı soyqrımı dəhşəti və qəddarlığı ilə fərqlənir. Öz miqyasına

və dəhşətlərinə görə tarixdə analoqu olmayan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri qəddarlıqda heç də faşistlərdən geri qalmadıqlarını bir daha təsdiqlədilər. Yaxın tariximizin faciəli səhifələrindən biri Xocalı soyqırımı xalqımızın qan yaddaşına əbədi həkk olmuşdur. Çox təəssüflər olsun ki, Xocalı şəhəri tarixə Xocalı faciəsi kimi düşdü. Bu hadisə XX əsrin ən dəhşətli faciələrindəndir. Görünməmiş növbənöv amansızlıq, qəddarlıq və qətl faktları, öz miqyası və üsulları ilə Xocalıda törədilən faciə dünyada və tarix qarşısında bir daha ermənilərin xislətini bütün aydınlığı ilə ortaya qoydu. Xocalı faciəsi dünyanın qətl və qəddarlıq simvoludur. Bu il dəhşətli gecədən 29 il keçir. Bütün Azərbaycan xalqı bu faciəni ürək ağrısıyla öz qəlbində yaşadır. Hər bir azərbaycanlının qəlbində bu faciə XX əsrin faciəsinə çevrilib. ABŞ-ın “The Middletown Press qəzeti: II Dünya müharibəsindən sonra Xocalı soyqırımını Avropada ən ağır cinayət hesab etmək olar. Çünki XX əsrdə Xocalı üç dəfə-1905- 1906, 1918-1920 və 1992-ci ilin fevralında ermənilər tərəfindən yandırılıb.
1992-ci ilin fevralına kimi Xocalıda 7 min əhali yaşayırdı. Neçə aylarla ermənilərin həmlələrinə, hücumlarına mərdliklə dözmüşdü. 7 min nəfər əhalisi olan Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əskəran-Xankəndi yollarının üstündə yerləşir. Xocalı əhalinin tarixən məskunlaşdığı yerdir. Xocalı faciəsi təsadüfi hadisə deyildi. Azərbaycan xalqı son 200 il ərzində erməni millətçi- şovinistlərinin etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Soydaşlarımız tarixi torpaqlarından didərgin salınmış, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-1953 cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunaraq, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı doğma ata-baba yurdlarından qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. Hadisələrə baxdıqda görürük ki, şəhərə dörd tərəfdən əhatələndikdən sonra artilleriya və ağır texnikalardan davamlı güclü atəş açılıb. Az sonra ermənilər qəfil hücuma keçib. Müdafiənin mümkünsüzlüyünü duyan əhali evlərini tərk etməyə məcbur olub. Səhər saat 6 radələrində şəhər işğal olunub. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə cəmi bir neçə saat ərzində 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoyublar. 8 ailə tamamilə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq valideyinin birini itirib. 487 nəfər şikəst olmuş, 1275 nəfər girov götürülmüşdür. Ermənilərin əlindən salamat qurtaranların çoxusu soyuqdan donub. Xocalıda 1275 qoca, uşaq, qadın əsir götürülmüşdür.

Onların xeyli hissəsi geri qaytarıldı, əsirlərlə dəyişdirildi. Amma məlumatlarda bildirilir ki,onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımdı. Bu

soyqırımda həlak olanlar xalqımızın milli azadlıqları yolunda apardıqları mübarizənin qurbanları, şəhidləridir. Erməni hərbiçiləri amansızcasına öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, dinc sakinləri diri-diri torpağa basdırmış və yandırmışlar. Meyitlər üzərində insanlığa xas olmayan təhqiramiz hərəkətlər edilmişdir. Azərbaycan xalqına qarşı misli görünməmiş, tükürpədici bu soyqırımı, kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı irimiqyaslı cinayət idi. Onlar xalqımza qarşı sözün əsl mənasında genosid planını həyata keçirdilər. (Qədim Yunan dilində olan "genos"- nəsil, kök, soy mənasını verən sözlə, latın dilində "öldürürəm" mənasını "caedo" sözlərinin birləşməsi nəticəsində yaranan və beynəlxalq hüquqda istifadə edilən "genosid" termini-Azərbaycan dilində "soyqırım" mənasını verir) aktını törətmişlər. Xocalı soyqırımı zamanı yüzlərlə soydaşlarımızın həyatına son qoyuldu. Bütöv bir şəhər məhv edildi. Günahsız insanlar ağır işgəncələrə məruz qalaraq isti ocaqlarından didərgin düşdülər. Azərbaycanın əzəli torpaqları düşmən tapdağı altında qaldı. Amma faciənin acı fəsadları bununla bitmədi: Xocalı soyqırımı Xocalıdan sonrakı xocalıların da taleyini dəyişdi, onların yaddaşı kimi sonrakı həyatlarında da dərin izlər buraxdı. Xocalı adlı vətən dərdi dünyaya göz açan körpələrin köksündə közü ilə bərabər boy atdı. Bir çox milli faciələrimiz kimi, Xocalı soyqırımına da siyasi-hüquqi qiymətin verilməsi ümummillilider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. 1994-cü ildə Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis 26 fevral-"Xocalı soyqqırımı günü haqqında" xüsusi qərar qəbul etmişdir. Sənəddə hadisənin başvermə səbəbləri və günahkarları təfsilatı ilə açıqlanır. Böyük Öndərin 1997-ci il 25 fevral tarixi Sərəncamına əsasən, hər il fevralın 26-sı saat 17:00-da Azərbaycan ərazisində Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. 1996-cı ildə xocalılarla görüşən ümummillilider Heydər Əliyev bu faciənin tarixin ən qanlı səhifələrindən biri olduğunu qeyd etmişdir. Bu gün ulu öndər H.Əliyevin ideyalarını uğurla gerçəyə çevirən Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin, həmçinin Xocalı soyqırımının təfərrüfatlarının dünya içtimaiyyətinə çatdırılması istiqamətində də böyük qətiyyət nümayiş etdirir. Bakının Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılmışdır. Dövlətimizin başçısı hər il fevralın 26-da dövlət və hökumət nümayəndələri ilə birgə həmin abidənin önünə gəlir, soyqırmı qurbanlarının xatirəsini yad edir.

Heydər Əliyev fondu da, Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. Fondun dəstəyi və təşkilatçılığı ilə soyqırımla bağlı xüsusi layihə çərçivəsində dünyanın bir sıra ölkələrində

aksiyalar, silsilə tədbirlər, sərgilər, anım mərasimləri keçirilir. Fondun bu mövzuda çox sayda nəşrləri, filmləri demək olar ki, dünyanın bütün ölkələrinə çatdırılmışdır. 2012-ci ildə Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı soyqırımının tanınması barədə qətnamə, Kolumbiya Senatı da Xocalı faciəsinin xalqımıza qarşı soyqırımı olduğunu qəbul etmişdir. Elə həmin ildə Türkiyə Böyük Millət Məclisinin Xarici işlər Kommissiyasında Xocalı faciəsinin ildönümü ilə bağlı keçirilən toplantıda bəyanat qəbul olunmuşdur. ABŞ-ın Texas ştatının Nümayəndələr Palatası da Xocalı qətliamının ildönümü münasibətilə qətnamə qəbul etmişdir. Bu qətnamə Texas qanunvericilərinin Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi ikinci sənəd idi. İlk sənəd isə 2011-ci ildə qəbul edilmişdir. ABŞ-ın Massaçusets və Corciya ştatları da Xocalı soyqırımı ilə bağlı Ermənistanı ittiham edən müvafiq sənədləri qəbul etmişlər. Bundan başqa ABŞ-yaşayan azərbaycanlılar 2013-cü il yanvarın 25-də etibarən Xocalı soyqırımının tanınması, onun qurbanlarının anılması və ABŞ Prezidentinin bununla bağlı bəyanat verməsi məqsədilə Ağ evin rəsmi veb-səhifəsində "Biz xalqıq" bölməsində petisiya yerləşdirmişlər. Az vaxtda petisiya dünyanın müxtəlif ölkələrindən 100 mindən çox insan imza atmışdır. Rumıniya Parlamenti Deputatlar Palatasındakı Demokratik Liberal Partiyasının Parlament Qrupu da "Dağlıq Qarabağ münaqişəsi" nə dair siyasi bəyanət qəbul etmişdir. Ötən illərdə Çex Respublikasının Parlamenti də Xocalı soyqırımını rəsmən tanımışdır. Bununla da, Çex Respublikası Avropa İttifaqının üzvləri arasında Ermənistanı dinc Xocalı sakinlərinin qətliamına görə rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlət olmuşdur. Honduras Milli Konqresi də Azərbaycan ərazilərinin işğalı və Xocalı soyqırımını tanıyan qərar qəbul etmişdir. Cari ildə Tehranda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 9-cu sessiyasında 53 dövlətin parlament nümayəndələri də Xocalı faciəsinin soyqırımı kimi tanınmasında həmrəylik ifadə etmişlər. İlham Əliyevin Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi sənədlərdə XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə Ermənistanın təcavüzkar siyasətinin ən qanlı səhifəsi olan Xocalı soyqırımı kimi ağır cinayətə görə siyasi-hüquqi məsuliyyətin birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşdüyü qeyd olunur. Prezident İlham Əliyevin bu məsələdəki qətiyyətli, bu istiqamətdə gördüyü işlər əminliklə deməyə əsas verir ki, nüfuzlu beynəlxalq təşkilatlar, bütün dünya Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəkdir. Erməni vandallarına, terorçularına və soyqırımı yürüdənlərə qarşı ən təsirli mübarizə üsullarından biri tarixi həqiqətlərini üzə çıxarmaq, bu dəlil, bu sübutları bütün dünyaya geniş səviyyədə çatdırmaqdır. Xocalı soyqırımı haqqında neçə-neçə əsərlər yazılıb, yazılacaq da. Ermənistanın işğalı, erməni terrorçularının əməlləri beynəlxalq qanunlara əsasən soyqırım xarakterlidir və cinayətkarlar cəzasız qalmamalıdırlar. Xocalı tarixə artıq şəhid şəhər kimi daxil

olunub. Bu şəhər həmişə yad edilməlidir. Od içində odlara qalanan bu şəhərin faciəsinə dünya içtimaiyyəti, siyasətçiləri və beynəlxalq təşkilatlar göz yummamalıdırlar. Özlərini sivil ölkələrin demokratik sakinləri adlandıranlar onun düzgün siyasi qiymətini verməlidilər.
Bu gün Qarabağı geri qaytarmaq Azərbaycan varlığını, onun ərazi bütövlüyünü, torpaqlarımızın toxunulmazlığını bərpa etmək, Azərbaycan dövlətçiliyinə əbədiyyət qazandırmaq, Azərbaycanda separatizmin kökünü kəsmək haqqımızı kimsə əlimizdən ala bilməz. "Qarabağsız Azərbaycan yoxdur!" deyənlər haqq yolundadır. Sarsılmaz Azərbaycan dövlətçiliyinin keşiyindədirlər.
VƏTƏN OĞLU, Qarabağ bu gün bizim üçün Tanrı sınağı, qeyrət rəmzidir. Qarabağ bizim yaşam pasportumuzdur. Qarabağsız Azərbaycan ruhsuz candır. Bu gün Qarabağ milli qeyrət, milli mənlik, milli özünüdərk, olum-ölüm yolu, gələcək nəsillər qarşısında məsuliyyət hissi deməkdir. Qarabağı unutsan, bu gününlə, sabahınla, varlığınla, həyatınla vidalaşmalı olacaqsan.
Kitabxanaçının çıxışından sonra iştirakçılar mövzu ilə bağlı məruzələr edirlər.
**I Məruzəçi:** Xocalı soyqırımı və qadın hüquqları 1988-ci ildən başlanmış Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin kuliminasiya nöqtəsi Xocalı soyqırımı oldu. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar qətliamlarından biri hesab edilə bilər. Xocalı facəsi tarixdə bizə məlum olan soyqırımı aktları ilə eyni səviyyədə durur. Ulu öndərimiz Heydər Əliyev demişdir: "Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. Bu da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, sədaqətinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır-vəhşiliyin görünməmiş bir təzahürüdür".
Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist – millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə siyasətinin davamı və ən qanlı siyasətidir. Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu olmayan Xocalı soyqırımını törətməkdə erməni şovinistlər və ideoloqları məkirli məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağ və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğunda mübarizə əzmini qırmaq idi. Ancaq mənfur düşmən öz niyyətinə çata bilmədi. Düzdür, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin Xocalı sakinləri hətta amansız soyqırımı günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə müqavimət göstərmiş, düşmən qarşısında əyilməmiş, xalqımızın mübarizə tarixinə şərəflə adlarını yazmışlar.Cinayətkar erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər, şəhid, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin-qocalar, uşaqlar, qadınlar, əsir götürülərək ağlasığmaz

erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuşlar, şikəstlərin 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır. 8 ailə bütövlüklə məhv edilmiş, 24 uşaq hər iki valideynlərindən birini itirmişdi. Şəhid olanların yalnız 335 nəfəri dəfn olunmuşdur. 200 nəfərin ayaqları soyuqdan qanqrena olmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Erməni quldurları 56 nəfəri xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirmişdir. Onlar diri - diri yandırılmış, başları kəsilmiş, dəriləri soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Meyitlər üzərində deyilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdir. Həyatdan məhrum edilmiş bu insanların yeganə günahı azərbaycanlı olmaları idi.

**II Məruzəçi:** İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 2-ci maddəsində qeyd edilir ki, hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi əqidəsindən, milli və sosial mənşəyindən, əmlak və sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq, bütün hüquq və azadlıqlara malik olmalıdır. Lakin yuxarıda göstərilənlər insan hüquq və azadlıqlarının pozulmasının adi halı deyildir. Əsrin əvvəllərindən başlayaraq plana uyğun surətdə azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə, soyqrımı siyasəti idi.

Şərqiyə Talıbova adlı şahid qadın göstərmişdir ki, daşnaklar erməni döyüşçüsünün qəbri üstündə 4 nəfər axıska türkünün və 3 azərbaycanlının başını kəsdilər. Valideynlərinin gözləri qarşısında uşaqlara ağır işgəncələr verərək onları öldürdülər. Xocalıdan olan digər şahid-Sənubər Ələkbərova Naxçıvanik kəndində qadın, uşaq və qoca meyitlərindən yaranmış təpəni heç vaxt unutmayacağını bildirir. Həmin kənddə ermənilərin qurduğu pusquya düşdükdən sonra onun əri, iki qızı-Sevinc və Hicran öldürülmüş, özü isə yaralanmışdır. Orada 200 nəfər azərbaycanlı girov götürülmüşdür.

Cəmil Məmmədov adlı girov düşmüş azərbaycanlının dırnaqları çıxarılmış, sifətinə təpik ilə ağır xəsrət yetirilmiş nəvəsi zorla ondan alınıb harasa aparılmış, anası və qızı itkin düşmüşdür.

İnsan Hüquqları Haqqında Ümumi Bəyannaməyə görə, insaqnların zorla bir qrupdan alınıb başqa bir qrupa verilməsi soyqrımı cinayətin baş verdiyi yerdə olmuş fransız jurnalisti Can Yunet demişdir: “Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm, ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçiblər”.

“İzvestiya” qəzetinin müxbiri V.Bulıx göstərmişdir ki, Xocalı hadisələri zamanı gözləri oyulmuş, qulaqları kəsilmiş qadın və kişi meyitlərinin şahidi olmuşdur.

Moskva “Memorial” Hüquq – Mühafizə Mərkəzinin Xocalı şəhərinin işğalı zamanı insan hüquqlarının kütləvi pozulması faktları barədə məlumatlarında göstərilir: “Qaçanlar ermənilərin pusqusuna düşmüş və gülləbaran edilmişlər. Dörd gün

ərzində Ağdama 200 meyit gətirilmiş, onlarca meyitdə təhqirə məruz qalma əlamətləri olmşdur. Dörd meyitin başının dərisinin soyulduğu və bir meyitin başının kəsildiyi qeydə alınmışdır.
Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13uşaq ) dövlət məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Eks- pertlərin rəyi ilə müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuşdur. 10 nəfər isə küt alətlə vurulmaqla öldürülmüşdür".
Soyqırımın hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalanması haqqında" Konvensiya müəyyən olunmuşdur. Konvensiyada göstərilir ki, soyqırımı hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlərdən ibarətdir:
-bu cür qrup üzvlərinin öldürülməsi;
-belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
-hər hansı bir qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
-bu cür qrupda doğumun qarşısının almağa yönəldilmiş tədbirlərin görülməsi;
-uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Aparılmış tədqiqatlar onu deməyə əsas verir ki, Xocalı soyqırımı nəticəsində insan hüquqları, o cümlədən qadın hüquqları kobud şəkildə pozulmuşdur. Belə ki, şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuşlar. Şikəstlərin 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır. Bu cinayətdə 56 nəfər, o cümlədən qadınlar xüsusi qəddarlıq və amansızlıqla öldürülmüşdür. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, dəriləri soyulmuş, hamilə qadınların qarınları süngü ilə yırtılmışdır. Qadınların gözləri oyulmuş, qulaqları kəsilmiş, sümükləri çıxarılmış, başları kəsilmişdir. Göründüyü kimi "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin 2-ci maddəsində öz əksini tapmış qadın hüquqları kobud şəkildə pozulmuşdur.
**III Məruzəçi:** Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə, o cümlədən qadın və uşaqlara qarşı hərəkətləri Cenevrə Konvensiyasına, həmçinin İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin (BMT-nin Baş Assambleyası 10.12. 1948-ci ildən qəbul edilmişdir) aşağıdakı maddələrinə görə kobud qaydada ziddir.
-Hər bir şəxs dilindən, dinindən, milliyətindən və digər səbəbdən, fərq qoyulmadan bu bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır.
-Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.
-İnsan ləyaqətini alçaldan, insanlıqdan kənar və qəddar hərəkətlər qadağandır.
-Hər bir insanın əmlaka malik olma hüququ vardır və insanın əmlakdan özbaşına məhrum edilməsi qadağandır.

Bütün bunlar onu sübut edir ki, Xocalı soyqırımını törədənlər, günahsız insanların ölümünə bais olanlar ədalət məhkəməsindən canlarını qurtara bilməyəcəklər.

Xocalı soyqrımı ilə əlaqadar olaraq kitabxanada **"Od tutdu o gecə torpağın, daşın" adlı şeir müsabiqəsi** keçirilə bilər. Bunun üçün kitabxanaçı məktəblilərə bu gün və müsabiqə haqqında məlumat verir. Məktəblilərə Xocalı soyqrımı ilə bağlı şeirlər təqdim edilir. Müəyyən olunmuş vaxtda şagirdlər kitabxanaya gəlirlər. Şeir müsabiqəsini açıq elan edən kitabxanaçı Xocalı soyqrımı haqqında qısa məlumat verir.

**Kitabxanaçı:** Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkili xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb... Xocalı faciəsi xalqımızın növbəti faciəsini yaşadığı tarixdir...

*I iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə "Xocalı" adlı şeiri deməyə başlayır.*

Müəllif: Sərdar Zeynal
Gözləyib, gizləyib zaman sirrini,
Dəyişib dünyanın işi,amalı.
Deyəsən, yetişir qiyamət günü,
Vədəsiz küləklər əsir, Xocalı!

Sərt gəldi fevralın 26 –sı,
Al qana qərq oldu bulaqlarda su,
Qəfildən quruldu bir yurdun yası,
Bir kəsə çatmadı səsim Xocalı!

Əzəldən əl atıb böhtana, şərə,
Çaqqallar toplaşıb güc gəlir şirə,
Matəmə büründü yurd birdən -birə,
Ötüşdü bir qəmli nəsim, Xocalı!

Nə görüb, nələri çəkməyib başın,
Od tutdu o gecə torpağın, daşın,
Dul qalmış gəlinin gözünün yaşın,
Bəs necə qurudum, kəsim, Xocalı!

Dinmirəm gözümdə gilələnir yaş,
Yadıma düşdükcə o gün, o savaş,
Qız ana itirdi, qardaşı qardaş,
Mən necə kiriyim, susum, Xocalı!

Söyləsəm, bu dərdim dağlardan ağır,
Namərdlər yoluma daş dığırladır,
Dağıldın kəndbəkənd, çadırbaçadır,
Bəs kimdən inciyim, küsüm, Xocalı!

Uyuyan kəsləri yuxudan ayılt,
Qəlbimdə alışan həsrəti soyut,
Qayıt, sən yenidən özünə qayıt,
Bu sevinc qoy olsun bəsim, Xocalı!

*II iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə " Xocalı, ay Xocalı" adlı şeiri deməyə başlayır.*
Müəllif: Namazova İlhamə

İnsanlara qıymadan,
Güllə atəşinə tutdular.
Yaşlı, uşaq baxmadan,
Yanar oda atdılar.

Neçə şəhidlər verdik,
Neçə ana itirdik,
Neçə illər gözlədik,

Könlümüz dərddən yaralı,
Gözümüz səndən aralı,
Qəlbimiz düşməndən dağlı,
Xocalı, ay Xocalı !

Gün gələr, dərdimiz sona yetər,
Hər kəs öz yurduna dönər,
Şəhidlərin ruhu sevinər,
Xocalı, ay Xocalı !

Sənin uğrunda döyüşməyə hazırıq,
Vətən torpağını qaytarmağa hazırıq,
Düşmənə hər cür əzab verməyə hazırıq,
Xocalı, ay Xocalı !

Şəhidlərin qanı yerdə qalmayacaq,
Anaların haqqı düşməndən sorulacaq,
İgid oğullar səni düşməndən qurtaracaq,
Xocalı, ay Xocalı !

*III iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə "Xocalı Ağısı" adlı şeiri deməyə başlayır.*

Müəllif: Daşqın Gülməmmədov

Ağlayın dağlar ağlayın,
Uca zirvələr, ağlayın,
Xocalının ah-fəryadı
Kəsməyir, siz də ağlayın, Köksü, sinəni dağlayın,
Xocalıya yas bağlayın…

Röyalarda gəlir dilə,
Uşaqların qan naləsi,
Xocalının fəryad səsi, dağlar, siz də qan ağlayın
Bu dərdi bir soraqlayın…

Ağı desin Azərbaycan,
Cahan eşitsin səsini,
Xocalıda axan qanın,
Ahla, çəksin qüssəsini…

Ağla, Azərbaycan, ağla, Ağla,
Xocalını ağla Sinə dağla, Qara bağla…

Ağla Xocalını ağla,
Ağla, Azərbaycan ağla…
Ağı bitsin, qəzəb gəlsin,
Yurddan bir savaş,
Səslənsin..Silahlanaq,
Yaraqlanaq,
Düşmən canına od salaq,
Xalqım, savaşa yollanaq!

Qan tökməsək qisas olmaz,
kədər, qüssə heç vaxt solmaz…

Xocalı qisasa səslər,
Milləti savaşa səslər…
Ağla, Azərbaycan, ağla,
Xocalıya, sən yas bağla,
Qisas günü yetənədək,
Ağı deyib sinə dağla, Ağla,
Azərbaycan, ağla,
Xocalıya sən yas bağla,
Ağla, Azərbaycan, ağla…

Qan tökməsək qisas olmaz,
kədər, qüssə heç vaxt solmaz…

Xocalı qisasa səslər,
Milləti savaşa səslər…

*V iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə "Xocalı yası" adlı şeiri deməyə başlayır.*

Müəllif: Əliyeva Lalə

Tüklərim biz-biz durur,
Xocalını ananda!
Qəlbim nifrətlə vurur,
Xocalını ananda!

Xocalı!
Ahım göyə ucalı!
Qanına qəltan oldun,
Həm uşaqlı- qocalı!

Xocalı dağlarında ayağı donana bax!
Od-alov qarsalayıb ciyəri yanana bax!
Erməni "dığaları" gülləbaran eylədi,
Xocalı tək obanı eli viran eylədi!

Asimana ucalır anaların naləsi!
Süngü-bıçaq altında onun bircə körpəsi,
Dəlmə-deşik bədənlər, soyulmuş qafa tası,
Yaralardan qan axır, əridir qarı, buzu!

Yenə ekranda gedir Xocalı faciəsi,
Yenə yerdə meyitlər,
Yox yanında kimsəsi,
O bədbəxt insanların, Qulağımda naləsi!

Hələ durur qabaqda Xocalının qisası!
Bu qan yerdə qalmasın!
Qoy alınsın qisası!
Yurduna sahib dursun onun öz oğlu-qızı!
Bitsin Xocalı yası!

*V iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə "Xocalı" adlı şeiri deməyə başlayır.*

Müəllif: Davide Qualtierini
Şərqdən gələn qonağın yükü hekayət olar
– amma mən eşitdiklərim…
inanmıram dünyada
belə cinayət ola…

Uzaq, günəşli ölkədə
25 fevral gecəci qarlı kölgədə
qırdılar 613 günahcız adamı
– aman vermədilər biri də qaça Xocalı şəhid oldu,
Xo-ca -…
Elə bil muncuq üzüldü sapınnan
topasına biçdilər xocalıları – topunan…
Xocalı!
qətlinə fərman verənlər – cani!
bu zülmü görənlər – cani!
görüb-götürənlər – cani!
Amma göylər götürməyəcək bu qədər qanı and içirəm:

*VI iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə "Ay bəlalı Xocalı" adlı şeiri deməyə başlayır.*

Ürəyimə bir dərdsən.
Ay bəlalı Xocalı,
Bu dərdini çəkənin.
Yoxdur halı, Xocalı.
-Ay bəlalı Xocalı.

Qəlbim yanır od kimi.
Göz yaşlarım cod kimi.
Baxma mənə yad kimi.
Dərd-bəlalı Xocalı.
-Ay bəlalı Xocalı.

Mənim qəlbim dağlıdır.
Əlim-qolum bağlıdır.
Ruhum salsa haqlıdır
Qalmaqalı Xocalı .
Ay bəlalı Xocalı.

Kəsilibdir hər yolun.
Bağlanıb sağın, solun.
Acizdir Qərib oglun.
Yox əhvalı, Xocalı.
-Ay bəlalı Xocalı.

*Sonda münsiflər heyəti qalibləri təyin edərək onları mükafatlandırır.*

Xocalı soyqrımı ilə əlaqadar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də **"Unutmayacağıq, unutdurmayacağıq" adlı dəyirmi masadır.** Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra öz dəyərli məlumatlarına keçid alır:
Siz ey Vətən yolunda şirin canından keçib,
İgidliyi, mərdliyi özünə amal seçib,
Ömrün bahar çağında həyatdan erkən köçüb,
Ölümüylə bu yurdu, torpağı yaşadanlar,
Yaşayan hər ömürdə qanınız, canınız var!
Səs verdiniz Vətənin harayına, səsinə,
Yüksəldiniz müqəddəs şəhidlik zirvəsinə.
Məzarınız dönübdür ziyarət türbəsinə.
İnanın, and içirik, qanınız alınacaq,

Xatirəniz, ruhunuz həmişə anılacaq!

*Faciənin xronikası*
*Müəllif: Pirim Pirimov*

Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30- da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu. Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Şəhərə hücum toplardan, tanklardan, “Alazan” tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əskəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu, məkrli hiylə imiş. Naxçevanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əskəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

Bu hadisələr regiona İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin vasitəçilik missiyası ilə səfəri günlərinə təsadüf etmişdir. O, fevralın 25-də Azərbaycanın hakimiyyət rəhbərləri ilə görüşmüş və fevralın 27-də Qarabağa, sonra isə Ermənistana səfər planlaşdırırdı. Bununla əlaqədar olaraq tərəflərin razılığı ilə fevralın 27-dən martın 1-dək üçgünlük atəşkəs elan edilmişdi. Ermənilər ona məhəl qoymadılar və vədlərinə xilaf çıxdılar.

Oxşar vəziyyət fevralın 12-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Şurasının missiyasının vəziyyətlə tanışlıq və münaqişənin tənzimlənməsi məsələlərinin təhlili məqsədilə Qarabağa gəldiyi zaman da baş vermişdi. Missiya sonra Yerevana və Bakıya səfər etməli idi. Məhz fevralın 12-də erməni silahlı dəstələri tərəfindən Şuşanın Malıbəyli və Quşçular kəndləri qarət edilmiş və yandırılmışdır, təkcə Malıbəylidə 50 nəfər öldürülmüş, yaralanmış və əsir götürülmüşdür.

Həmin günlərdə Azərbaycan qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilmədi, hətta meyitlərin götürülməsi belə mümkün olmadı. Bu zaman isə ermənilər

vertolyotlarla, ağ geyimli xüsusi qruplarla meşələrdə gizlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular.
Fevralın 28-də tərkibində yerli jurnalistlər də olan qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyiti götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyitlərin qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərinin çıxardılması, ətrafların kəsilməsi, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Xocalı soyqrımı ilə əlaqədar olaraq kitabxanada **“Xocalıda sönən işıq” adlı kompozisiya** keçirilə bilər. Bunun üçün kitabxanaçı məktəblilərə kompozisiya haqqında məlumat verir. Məktəblilərə Xocalı soyqrımı ilə bağlı məlumatlar təqdim edilir və məktəblilər bu məlumatlarla tanış olurlar. Müəyyən olunmuş vaxtda şagirdlər kitabxanaya gəlirlər. Tədbiri açıq elan edən kitabxanaçı Xocalı soyqrımı haqqında qısa məlumat verir.
**Kitabxanaçı:** Biri var idi, biri yox idi axar – baxarlı, başı ağ çalmalı, həyatın hər səhnəsinin şahidi, dünənini keçmişlərə fəxarətlə gömən, bu günləri inamla salamlayan, sabahlara ümidlə göz dikən dağların qoynunda Xocalı adlı bir cənnətməkan var idi. Qarabağın sinəsindən pərvazlanan bu ocaq yerinə hər səhər göylərin nazlı gözəli günəş təbəssümü ilə insanları yuxudan oyadar, həyat öz axarı ilə davam edərdi.
Günlərin bir günü...
Bu dağların qoynunda yaşıl bir kənd varıydı, Əlvan saray, güllü bağ, gen aynəbənd varıydı, Neçə dodağı şəkər, söhbəti qənd varıydı, Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.
Yoxdu, daha nağıldı,
İtdi, batdı, dağıldı.
Mənim şirin qafiyəm, mənim incə hecalım,
Xocalım, ay Xocalım.
Bu füsünkar məkanın üstünü qara buludlar aldı. İşıqlı sabahlara doğru qədim azəri yurdu erməni qəsbkarlarının iştahına, hərisliyinə qurban oldu. Hansı işğalçı belə gözəlliyin əsiri olmaz?
Lakin azğın, bədnam qonşularımızdan başqa, yəqin heç kim həsəd apardığı füsünkarlığın qənimi olmaz. Bu xəbislik, şübhəsiz, onlara xas ola bilərdi. Məhv etdilər Xocalımı. Sildilər yer üzündən elimin bu parçasını. İtib-batan diyarımız! Qəlbi yaralı torpağımız! Nə deyək ki, yaralarına məlhəm olsun. Nə söyləyək ki, dərya qədər dərdindən bir damla götürə bilək.

Quruyub cadar olmuş dodaqlara nə deyim,
Kəsilmiş biləklərə, barmaqlara nə deyim?
Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?
Tanrı rəva bilməsin mən bu dərdlə qocalım,
Xocalım, ay Xocalım.

Xocalı faciəsi XX əsrin ən ağır faciəsidir. Vorfolomey gecəsitək dəhşətli idi tariximizin bu günü, bu səhifəsi. Sinəsinə vurulan bu yaranın acısı, sızıltısı, hələ sızım-sızım, sızıldarkən, gizildərkən, 20 Yanvar dəhşəti qəlblərdə, yaddaşlarda göynəyərkən yeni bir soyqırımı yaşadıldı xalqıma. Ermənilər bu soyqırımı düşünülmüş, planlı şəkildə həyata keçirilmişlər.

Ağzından alov çıxan silahlar yedi səni,
İştahalar, nəfslər, tamahlar yedi səni.
Bağışlanmaz, yuyulmaz günahlar yedi səni.
Heç Allah götürərmi, qisasımı gec alım?
Xocalım, ay Xocalım.

Gözlərini qan tutmuş ermənilər sənə divan tutdular. Əlin heç yana çatmadı, səsini kimsə eşitmədi. O gün dağ da, daş da bu terrora üsyan etdi. Axan çaylar bu acıya yana-yana ağı dedi. Əsən yellər ağrı içində qıvrılan yurddaşlarımızın ahını, amanını dünyaya çatdırmağa çalışdı. Yağan yaşışlar murdar quldurların izlərini yuyub aparmağa can atdı. Göylərdən ələnən qar çöllərdə, düzlərdə donaraq ölənlərin kəfəni oldu.

Töküldülər üstünə quduz kimi, ac kimi,
Şumladılar yer kimi, qırdılar ağac kimi.
Dağıtdılar çöllərə əsir, yalavac kimi.
Səni qaldırammasam başım üstə tac kimi,
Tarixin yaddaşında çətin qalxım, ucalım,
Xocalım, ay Xocalım.

Aylarla mühasirədə qaldıqda, səsin ərşə dayandıqda, dayağın olmadı sənin.Yardımına yetişmədilər. Xocalının işğalı zamanı 7000-dən çox əhalinin bir gecədə 613 nəfəri, o cümlədən 63 uşaq, 70 qoca, 106 qadın xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Yağılar gəlirdi dizləri qanlı, Ağızları qanlı, sözləri qanlı... Bir gəlin qaçırdı, dizləri qanlı, Bir gəlin qaçırdı dağlara sarı.

Xocalıda 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq iki valideynini, 130 uşaq bir valideynini itirmişdir. Xocalı soyqırımında 500-ə qədər insan yaralanmışdır. Onların 76 - sı uşaqdır. 1275 nəfər girov götürülmüş, 150 insan itkin düşmüşdür. Nə idi günahı onların? Suçu türk olmaları idi? Xocalıda 4 aylıq çağanın günahı azərbaycanlı olması idi.

Duz basdılar yarama,

Layla, Xocalım, layla.
Düşdün gülləbarana Layla,
Xocalım, layla.

Daş üstə daşmı qaldı?
Salamat başmı qaldı?
Gözümdə yaşmı qaldı?
Layla, Xocalım, layla.

Neçə illərdir Xocalısız yaşadıq. Amma necə? Qulağımızda köçkünlərin naləsi, üstümüzdə şəhidlərin ruhu, qəlbimizdə Xocalı yarası, Şəhidlərin naləsini, nisgilini hiss edərək.

Vətən oğulları qalxın ayağa, Vətənin dağları sizi çağırır. Əsir düşmüş gəlinləri, qızları, Yaşıl yarpaqları sizi çağırır.

Bu gün bizim artıq qələbə günümüzdür. Azərbaycanın güçlü ordusu özünü ən layiqli şəkildə bütün dünyaya sübut etdi. Çingüz, Mübariz kimi oğullarımız qələbə qazandı. Bir gecənin içərisində yerlə - yeksan olan şəhərimizdə günəş yenidən doğur, o günəş də, o torpaq da bizimdir.

Xocalı soyqırımının 34-illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri **"Xocalıya Ədalət" adlı oxucularla söhbət** ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Xocalı qətliamı haqqında qısa məlumat verir:

Türk oğluyam, mən bu qandan keçmərəm,
And içirəm, öz andımdan dönmərəm.
Xocalını yağılara vermərəm.
Mən qoymaram, yerdə qala bu qanım,
Can Xocalı, can ey ana torpağım.

20 Yanvar 1990-cı il; 26 fevral 1992-ci il təqvimimizə qara hərflərlə yazılan tarixi günlər. 20 Yanvarda güllələnən qan yaddaşımız 2 il sonra fevralın 26-da hələ tamam sağalmayan yaralarıyla birlikdə daha dərin bağlandı. 1988-ci ilin fevral ayında başlanan Dağlıq Qarabağ münaqişəsi 4 il sonra fevral ayında Xocalı soyqırımının baş verməsinə səbəb oldu. Azərbaycanın qədim eli yerlə-yeksan edildi. Yenicə şəhər statusu almış bu yaşayış məntəqəsində körpələr amansızlıqla qətlə yetirildi. Analar vəhşi erməniyə əsir düşməmək üçün uşaqlarını öz əlləriylə boğdular, doğmalarının yaralı vücudunu əlacsızlıqdan meşələrdə qoydular. O dəhşət gecəsi sinəmizə çəkilən körpə dağı, ana-ata, bacı-qardaş dağıdır. Viran qalmış yurd dağıdır. Bağrımızda illərdir qövr eliyən yaradır.

Bu soyqırımı zamanı əsir düşmüş insanların başına gətirilən müsibətlər, onlara verilən işgəncələr erməni vandalizmini bir daha dünyaya nümayiş etdirmiş oldu.

Çünki əsirlikdə qalan xocalıların söylədikləri dəhşətli faktları eşitdikcə damarda qan donur.

Kitabxanaçının dəyərli məlumatlarından sonra iştirakçılar kitabxanaçı tərəfindən hazırlanmış Xocalı qətliamı haqqında *"Xocalıya ədalət" adlı videoçarxı* izləyirlər. Bu videoçarxın hazırlanmasında məqsəd gələcək nəsillərə bu faciəni çatdırmaqdır. Videoçarxda yer alan hadisə ilə bağlı şəkillər, videolar, amansız səhnələr və məlum soyqırımla bağlı kitab və dövri mətbuatda gedən məqalələr də yer almışdır. Çünki Xocalı böyük bir qətliamdır. Bütün dünya bu vəhşiliyi görməlidir.

Xocalı soyqırımı ilə əlaqədar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də "Tarixin ən sərt siması-Xocalı qətliamı" adlı rəy sorğusudur. Tədbirin keçirilməsində əsas məqsəd şagirdlərin yaddaşına Xocalı adlı faciəni həkk etdirməkdir. Bunun üçün məktəblilər əvvəlcədən kitabxanaya gəlib Xocalı soyqırımı haqqında məlumatlarla yaxından tanış olurlar. Kifayət qədər bilgi əldə etmiş şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Əvvəlcə kitabxanaçı qonaqlar və iştirakçıları salamladıqdan sonra Xocalı genosidi haqqında qısa və dəyərli məlumatlar verir. Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim olunur.

Suallar:

1. Xocalı faciəsinin tarixi aşagıdakı bəndlərin hansında düzgün verilmişdir?

a. 31 Mart 1918-ci il

b. 20 Yanvar 1992-ci il

c. 26 Fevral 1992-ci il

2. 1992-ci ildə Xocalıda neçə min əhali yaşayırdı?

a. 1992-ci ilin fevralına kimi Xocalıda 7 min əhali yaşayırdı.

b. 1992-ci ilin fevralına kimi Xocalıda 10 min əhali yaşayırdı.

c. 1992-ci ilin fevralına kimi Xocalıda 2 min əhali yaşayırdı.

3. Genosid sözünün mənasını necə izah edə bilərsiniz?

a. Genosid sözü beynəlmiləl söz olub "Qarabağsız Azərbaycan yoxdur!" mənasını verir.

b. Qədim Yunan dilində olan "genos"-nəsil, kök, soy mənasını verən sözlə, latın dilində "öldürürəm" mənasını "caedo" sözlərinin birləşməsi nəticəsində yaranan və beynəlxalq hüquqda istifadə edilən "genosid" termini- Azərbaycan dilində "soyqırım" mənasını verir.

c. Genosid sözü Çex Respublikasının dilinə "Xocalı soyqrımı" mənasını verir.

4. Əgər, sən də “Unutmayacağıq, unutdurmayacağıq” adlı lahiyəyə qoşulsan, nə kimi təbliğat yönümlü işlər görərdin?

5. Xocalı faciəsi ilə bağlı oxuduğun hər hansı bir əsərin, şeirin adlarını sadalaya bilərsənmi?

6. “Səhər saat 6 radələrində şəhər işğal olunub. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə cəmi bir neçə saat ərzində 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoyublar. 8 ailə tamamilə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq valideyinin birini itirib. 487 nəfər şikəst olmuş, 1275 nəfər girov götürülmüşdür. Ermənilərin əlindən salamat qurtaranların çoxusu soyuqdan donub. 1275 qoca, uşaq, qadın əsir götürülmüşdü. Onların xeyli hissəsi geri qaytarıldı, əsirlərlə dəyişdirildi. Amma məlumatlarda bildirilir ki,onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımdır”... Söhbət hansı şəhərdən və hansı qətliamdan gedir?

a. Xatın
b. Xirosima
c. Xocalı

7. Xocalı faciəsindən neçə il keçir?
a.34 b.29 c. 30

8. 44 günlük şanlı II Qarabağ savaşında düşməndən intiqam alan mübariz Azərbaycan əsgərinə nə demək istərdin? Ondan sənə nə hədiyyə etməsini istərdin? Bəs, Azərbaycan əsgərinə bir hədiyyə vermək istəsən ona nəyi hədiyyə edərdin?

9. Erməni daşnaqları tərəfindən Xocalıda kimlər qətlə yetirildi?
a. Xocalıda rus ordusu qətlə yetirildi.
b. Xocalıda xarici jurnalistlər və əsgərlər qətlə yetirildi.
c. Xocalıda dinc əhali - qadın, uşaq, qoca qətlə yetirildi.
Sualların cavabları:
1.C; 2. A; 3. B; 4. ... ; 5... ; 6. C; 7. A; 8. ... ; 9. C.

Tədbirin sonunda iştirakçılar mükafatlandırılır.

Xocalı soyqırımının il dönümü ilə əlaqədar kitabxanaçı kitabxanaya gələn daimi oxucularla bir həfrtə ərzində "Haray, Xocalım, haray" adlı divar qəzeti hazırlayır. Əvvəlcə oxucular bu mövzudan bəhs edən ədəbiyyatlarla tanış olub, məlumat toplayırlar. Hər oxucu bu mövzuda öz fikrini divar qəzetində qeyd edir və slayd hazırlayır. Ən yaxşı rəy bildirən, slayd hazırlayan oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır. Qəzet bu səpgidədir:

Yurduma kəc baxana amansızdır nifrətim,
Ağlamaqdan kar aşmaz, qalx ayağa millətim!
Millətimin birliyi qoy yayılsın cahana,
Nəsib olsun bütövlük anam Azərbaycana!

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr erməni idelologlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı daima özünə birləşdirmək istəmiş, bu yolda bütün cinəyət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirmişlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi nə idi? Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli

maneəni aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik silmək məqsədi idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Xocalının kromlexləri, dolmenləri, siklopları, kurqanları və digər abidələri, həmçinin müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsiylə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır.
1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki, mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın “Memorial” hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir.
Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Xocalı sakini Əntiqə erməni hərbçilərinin tələb etdiyi “bu yerlər böyük Ermənistanın bir hissəsidir” sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən diri-diri yandırıldı. Digər Xocalı sakini Səriyyə Talıbova danışırdı ki, “4 mesxeti türkü və 3 azərbaycanlının erməni qəbirinin üzərində başını kəsdilər. Sonra daha 2 azərbaycanlının gözlərini çıxartdılar”.

Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onların başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə konvesiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir. Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir. Xocalı qaçqınlarının BMT, Avropa İttifaqı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciətində deyilir: Biz, qaçqın vəziyyətinə düşmüş xocalılar, ürək ağrısı və eyni zamanda böyük ümidlə bütün dünyanın sülhsevər xalqlarına, beynəlxalq təşkilatlara müraciət edirik. Sizdən xahiş edirik, erməni hərbi

təcavüzü nəticəsində bizim başımıza gələn bəlaya laqeyd qalmayasınız. Biz inanırıq ki, dünyanın BMT və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan kimi dövlətin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan eləcə də Robert Köçəryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir. Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də **"Xocalının qara rəngi" adlı rəsm müsabiqəsidir.** Müsabiqə zamanı xeyli sayda məktəblilər müsabiqəyə cəlb olunur və bu haqda məlumatlandırılırlar. Oxucular Xocalı qətliamı ilə bağılı yazı və əsərləri oxuyaraq tanış olur və həmin hadisələrə uyğun rəsmlər çəkirlər. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Xocalı qətliamı haqqında məlumatları oxuyur, həm də oxuduqları, təsir altında qaldıqları səhnələrə uyğun şəkillər çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Ən çox diqqəti çəkən motivlər, qanlı səhnələr, erməni vandalizmi, erməni vəhşiliyi və s. bir neçə xüsusiyyət ağ vərəqlərə həkk olunur. Müsabiqənin qaliblərini müəyyən etmək üçün münsiflər heyəti təyin olunur. Sözü gedən heyət fərqlənən rəsmləri diqqətli bir şəkildə nəzərdən keçirərək, qalibləri müəyyən edirlər. Qaliblər təyin edildikdən sonra, xüsusi diplom və fəxri fərmanlarla mükafatlandırılır, Xocalı soyqırımı ilə bağlı yazılmış müxtəlif yazıçı və şairləin kitabları ilə təltif olunur.

26 Fevral Xocalı Soyqırımı Günü ilə əlaqadar olaraq, kitabxanada keçirilən tədbirlərdən biri də **"Sinəsi dağlı, yolları bağlı şəhər" adlı anım gecəsidir.** Gecə oxuculara həmin günün mahiyyətini daha da yaxından tanıtmaq üçün nəzərdə tutulur. Anım gecəsinə tarixçilər, tarixi şəxsiyyət və siyasətçilər, ictimai xadimlər, yazarlar, tarix müəllimləri, Xocalı faciəsinin canlı şahidləri dəvət olunur. İlk olaraq

Xocalı soyqırımı ilə bağlı slayd verilir. Slayddan sonra aparıcılar gecəyə keçid alırlar.

Salam dəyərli qonaqlar, tədbir iştirakçıları! Xocalı Soyqırımı Günü ilə əlaqədar qan yaddaşımızdan qopub gələn anım gecəsinə xoş gəlmisiniz. Biz bu gün sizlərlə dünənimizə, lap yaxın keçmişimizə qayıtmaq istəyirik. O, keçmişimizə ki, ata-analarımız, nənə-babalarımız, bizlər-hamımız o anların lap yaxından şahidi olmuşuq. O ağır, qanlı-qadalı günlər ömür səhifəmizdən gəlib keçib. O keçmişimiz ki, tariximizə tarix yazıb – Xocalı Soyqırımı Günü. Hər bir xalqın həyat salnaməsində elə günlər var ki, tarixə qanlı hərflərlə həkk olunub. Azərbaycan xalqının tarixində belə faciələrindən biri Xocalı soyqırımıdır. O tarix ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ- mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi, mədəni abidə və yaşayış məskəni dağıdılıb, viran edilmişdir.

O gecə yaddan çıxmaz, o gecə qan-qadalı, Qan içində çırpınan, tənha qalan Xocalı!
O qadalı gecənin nalələri bitərmi, Çəkilən sinə dağı ürəklərdən gedərmi?..
Xocalı... Bir kəlmə sözə necə böyük dərdlər, necə ürək yaralayan ağrılar, ah-nalələr sığarmış, ilahi?! Əsrin ən dəhşətli müsibətidir Xocalı soyqırımı.
Günəş necə yanırsan? Necə işıqlanırsan?
Dayanıb sükutla dur, Dərk et bu fəlakəti . Dəhşətlər dəhşətidir Xocalı müsibəti.

26 fevral 1992- ci il tariximizin qanla dolu bir səhifəsini təşkil edir. Bütöv bir şəhər xüsusi amansızlıqla qətlə yetirildi o gün. Əsrin müdhiş faciələrindən biri baş verdi. Xocalı sakinləri qatil və cani ermənilərin əli ilə qanına qəltan edildi, köksündən yara aldı o gecə. Böyüyə, kiçiyə qocaya, cavana məhəl qoyulmadı, körpələrə rəhm edilmədi. Hamilə qadınları, ağsaqqal insanları, ağbirçək anaları tankların tırtılları altında xıncım-xıncım etdilər. Xocalı şəhəri yerlə-yeksan olundu...

Aradan 34 il keçməsinə baxmayaraq, Xocalı müsibəti sağalmaz yaraya dönüb göyüm-göyüm göynədir bizi. Bu gün Azərbaycan xalqı qalib, mənfur yağı düşmən isə məğlub xalqdır. Biz müqəddəs torpaqlarımızı amansız düşmənlərdən təmizlədik. Xarı bülbülümüzə qovuşduq. Vətən üçün canından keçən ərənlərimiz var olduqca, vətən basılmaz!

Vətən yolunda canlarını qurban verən şəhidlərimizə əbədi eşq olsun!

Xocalı – Dirçəlişin və Qayıdışın Simvolu…

Xocalının azad olunması yalnız bir şəhərin geri qaytarılması deyil, milli qürurun, ədalət inamının və tarixi yaddaşın bərpasıdır. Bu gün Xocalı artıq ağrının deyil, dirçəlişin rəmzidir.

İllərlə qəlbimizdə daşıdığımız nisgil yerini qətiyyətə, kədər yerini quruculuq əzminə verdi. Xocalının azadlığı göstərdi ki, zaman keçsə də, haqq unudulmur. Ədalət gecikə bilər, lakin mütləq təntənə qazanır.
Bu torpaqlarda indi yeni həyat başlayır. Ucalan binalar, çəkilən yollar, qurulan infrastruktur gələcəyə ünvanlanan inamın göstəricisidir. Xocalı artıq susqun şəhər deyil – o, yenidən nəfəs alan, yenidən danışan, yenidən yaşayan bir yurddur.
Azad Xocalı milli birliyin gücünü nümayiş etdirir. Bu qələbə təkcə hərbi uğur deyil, həm də xalqın ruhunun, səbrinin və əzminin təntənəsidir.
Xocalı bu gün ümidin adıdır.
Xocalı bu gün qayıdışın adıdır.
Xocalı bu gün gələcəyə inamın adıdır.
Dirçələn şəhərimiz daim abad, sabahlarımız isə daim işıqlı olsun!
https://www.clb.az/biblioqrafik-xidm%C9%99t/melumat-biblioqrafiya/slaydlar/xocali-soyqirimi

**Ədəbiyyat siyahısı**

Bayandur İ. Qana bələnmiş tarix. - Bakı : Qanun, 2007. - 358 s.
Bayramova F. Xocalı harayı. - [S. l. : s. n.], 2018. - 16 s.
Biz o yurdlara qayıdacağıq : Foto kitab. - Bakı : "QHT nəşriyyatı", 2013. - 152 s. : foto. - Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Ermənistandan və Qarabağdan köçkün düşən insanlardan o yerlərin tarixinə aid foto və sənədlərin toplanılması, nəşri" layihəsi əsasında çap edilib.
Biz öz yurdumuza qayıdacağıq. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1997. - 520 s. : foto.
Bizi əsirlikdən qurtarın = Release us from captivity. - Bakı : Qismət, 2006. - 680 s. : foto, xəritə. - Azərbaycan və ingilis dillərində.
Çəmənli M. Fred Asif : sənədli roman. - Bakı : Təhsil, 2010. - 214 s. : foto rəngli, foto.
Elatlı E. Cəhənnəmdən gələn səs : roman. - Bakı : MBM, 2009. - 368 s. - (Kriminal).
Erməni terroru. - Bakı : Vətən, 2005. - 168 s. : foto, xəritə, il.
- Azərbaycan, rus və ingilis dillərində.
Əliyev Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. - Bakı : Şəms, 2006. - 520 s. : rəngli.foto, portr.
Gün N. Xocalı simfoniyası = Khodjali symphony : rekviyem. - Bakı : Vektor, 2006. - 84 s. : foto, il.
Həsənli M.  Qarabağın qara bəxti. - Bakı : Adiloğlu, 2011. - 200 s.

Həsənov Ə. Xocalı soyqrımı : səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması. - Bakı : Zərdabi LTD MMC, 2017. - 464 s. : foto. - Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində.

Xəlilqızı Ə. Güllələnmiş uşaqlıq = Растрелянное детство = Shot through chilhood. - Bakı : Çaşıoğlu, 2012. - 295 s. : foto. - Azərbaycan, rus və ingilis dillərində.

Xəlilqızı Ə. Güllələnmiş uşaqlıq = Растрелянное детство = Shot Through Childhood. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : foto ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

Xocalı şahidləri danışır. - Bakı : Mütərcim, 2018. - 182 s. : rəngli foto.

Qarabağ: dünən, bu gün fotoşəkillərdə = Karabakh: Yesterday and Today : in photos = Карабах: вчера, сегодня : в фотоснимках = قراباغ االمس و اليوم الصور الفتوغرافية : kitab- albom. - Bakı : İndiqo, 2007. - 200 s. : foto. - Azərbaycan, ingilis, rus və ərəb dillərində.

Məğrur Y. Gəlirəm, Qarabağ... - Bakı : Yazıçı, 2014. - 188 s. : foto.

Məmmədli N. Zəngulə. - Bakı : İdeal-Print, 2010. - 264 s. : foto.rəng.

Məmmədov N. İşğal altındakı tarixi - dini abidələrimiz. - Bakı : Nurlar NPM, 2015. - 96 s. : rəngli foto, foto, xəritə.

Məmmədov S. Xocalı soyqırımı. - Bakı : Kitab aləmi, 2010. - 16 s.

Məmmədov S. Tarixi saxtalaşdırmaq cinayətdir. - Bakı : Yazıçı, 2012. - 360 s. : rəngli foto, foto.- (cildli).

Müharibə və tarixi - mədəniyyət abidələrimiz : İşğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar. - Bakı : [s. n.], 2006. - 56 s.

Musaqızı S. Azərbaycan terrorizmin caynağında. - Bakı : Təfəkkür, 2004. - 156 s.

Müslümqızı S. Dünya susmasın gərək = World should not keep silence : sənədli xronika. - Bakı : Yazıçı, 2014. - 84 s. : foto. - Azərbaycan və ingilis dillərində.

Müslümqızı S. Xocalı uşaqları - Qan içində qar çiçəyi = Дети Ходжалы - снежный цветок в крови = Children of Khojaly - bloody primroses : povest. - Bakı : Yazıçı, 2013. - 120 s. : rəngli foto. - Azərbaycan, rus və ingilis dillərində.

Müslümqızı S. Xocalıdan gələn var = Guest from Khojaly. - Bakı : [s. n.], 2008. - 254 s. : fot. - Azərbaycan və ingilis dillərində.

Pənah G. Tanrının unutduğu Xocalılar... : povest. - Bakı : UniPrint, 2014. - 142 s.

Sonam B. Qanlı dərə. - Bakı : [s. n.], 2004. - 44 s.

Soyqırım : Erməni terrorizmi : Mahmud Kaşkari adına Beynəlxalq Fondun "Soyqırım və köçkünlər probleminin ədəbi düşüncədə dəstəklənməsi" layihəsi. - Bakı : MBM, 2009. - 184 s. : foto.

Soyqırım Muzeyi v. - Bakı : Hərbi Nəşriyyat, 2017. - 152 s. - (cildli).

Yaqublu N. Xocalı soyqırımı. - Bakı : Elm və Təhsil, 2012. - 188 s. : fot.